**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**İLHAMƏ MUXTAR QIZI ƏHMƏDOVA**

# İSA HÜSEYNOVUN (MUĞANNA) NƏSRİNDƏ MİLLİ KOLORİTİN İNİKASİ PROBLEMİ

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: **Məhərrəm Paşa oğlu Qasımlı**
Əməkdar Elm Xadimi, filologiya üzrə elmlər doktoru, professor

Rəsmi opponentlər: **Maarifə Hüseyn qızı Hacıyeva**
filologiya üzrə elmlər doktoru, professor

**Vaqif Əziz oğlu Yusifli**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedoqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə "29__" _02_____ 2016 –cı il saat "__"-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, Akademiya şəhərciyi, əsas bina, IV mərtəbə, Elektron akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "__" ________2016-cı ildə göndərilmişdir.

D.01.131 Dissertasiya Şurasının
elmi katibi, filologiya üşrə
elmlər doktoru, professor: **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bədii nəsrdə milli koloritin inikası, mətn fakturasında hansı səviyyədə özünü göstərməsi, tarixi-mənəvi yaddaşın, soykök təsəvvürlərinin bədii sferaya sistemli şəkildə gətirilməsi müasir filologiyanın diqqət mərkəzində olan ən ümdə məsələlərdəndir. Bu səbəbdən də bütün söz sənətkarları yaradılcılıq prosesində zəngin xalq xəzinəsindən məqsəd və məramlarına görə müxtəlif səviyyələrdə bəhrələnirlər. Xəlqi koloritin bədii yaradıcılığa cəlb edilməsi dil, üslub səviyyəsində müxtəlif sənətkarların bədii axtarışları müstəvisində çeşidli araşdırmaların probleminə çevrilmişdir. Dünya ədəbiyyatı korifeylərinin yaratdığı möhtəşəm abidələrinin özülünü təşkil edən xalq bədii düşüncəsindən qidalanma onlara yaşarılıq gətirmişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İsa Hüseynovun (Muğanna) yaradıcılığı da məhz bu müstəvidə araşdırmaları daha çox aktuallaşdırır.

İsa Hüseynov yaradıcılığı zəngin xəlqi kolorit imkanlarına görə sözün həqiqi mənasında xalq ruhunun möhtəşəm ifadəsi olduğundan onun müasir elmi-nəzəri düşüncənin təhlil prinsipləri müstəvisində tədqiq olunması böyük elmi əhəmiyyət kəsb edir. Ədəbiyyata gəldiyi ilk gündən fundamental əsərlərlə yaradıcı mühitə özünün töhfələrini verən bu istedadlı sənətkar milli-mənəvi dəyərlərin təkrarsız enerjisindən yüksək ustalıqla bəhrələnməklə bədii-estetik düşüncəyə yeni modellər təqdim etmişdir. Ona görə də İsa Hüseynov yaradıcılığı milli koloritin ifadəsi və görünüşü müstəvisində bütöv sistem təsəvvürü formalaşdıracaq yaradıcılıqdır. "Saz", "Tütək səsi", "Quru budaq", "Faciə", "Şəppəli", "Kollu Koxa", "Ömür karvanı", "Doğma və yad adamlar", "İdeal", "Məhşər", "Qəbiristan", "Cəhənnəm", "İsahəq, Musahəq", "İlan dərəsi və ya Peyğəmbərin taleyi", "Qırx kisə qızıl" və s. əsərlər milli-tarixi yaddaşın ifadəsi baxımdan da misilsiz əsərlərdir. Bu əsərlərin hamısının mahiyyətində genetik yaddaş, mifik zamanla bağlanmalar, etnosun tarixinin, sosial mental səciyyəsinin qabardılması və bütünlükdə diqqətin ora yönləndirilməsi kimi vacib məsələlər dayanır.

Milli əxlaq və davranış normaları, tarixi kimliyin əsas tutulması, bədii nümunələrdə obrazın əsas göstəricisi kimi milliliyin funksional səciyyəsi İ.Hüseynov yaradıcılığının özünəməxsusluğunu müəyyənləşdirən ana xətlərdir. Mühüm və əsas olan böyük sənətkarın yaradıcılığında milli koloritin ifadə mexanizmlərinin aydınlaşmasıdır. Bütün bunlar yazıçının nəsrində etnos yaddaşının, elat həyat tərzinin,

əski inanclar, mənəvi-əxlaqi dəyərlər sisteminin, təhkiyəsində epos mədəniyyətinin, milli kimlik məsələsinin və s. aydınlaşmasını aktuallaşdırır.

**Mövzunun işlənmə dərəcəsi.** İ.Hüseynovun bədii nəsri ideya-estetik xüsusiyyətləri, mövzu və mündəricəsi, janr tipologiyası, bədii-üslubi spesifikası müstəvisində günümüzə qədər müxtəlif tədqiqatların probleminə çevrilmişdir. M.Hüseyn, M.Arif, S.Rəhimov, İ.Şıxlı, İ.Əfəndiyev, İ.İsmayılzadə, Anar, Elçin, İ.Həbibbəyli, T.Hacıyev, C.Abdullayev, İ.Mustafayev, Q.Kazımov, N.Cəfərov, X.R.Ulutürk, Z.Yaqub, A.Hüseynov, T.Hüseynoğlu, Q.Namazov, İrfan Ülki, Gülrux Əlibəyova, Sabir Azəri, T.Bünyadov, V.Yusifli, T.Salamoğlu, M.Hüseynov, B.Vüsal, Sevinc Muğanna, A.Səməd [1] və başqaları yazıçının yaradıcılığını ədəbi-nəzəri fikrin işığında müxtəlif səpgili təhlillərə cəlb etmiş və onun zəngin sənət dünyası barədə dolğun təsəvvür yaratmağa çalışmışlar. İ.Hüseynov yaradıcılığının xəlqi qaynaqları, bədii nəsrindəki milli kolorit ayrı-ayrı araşdırmalarda bu və

---

[1] Hüseyn M. Ədəbiyyat və həyat. Bakı, Yazıçı, 1989; Arif M. Yazıçının siyasi mövqeyi. İ.Muğanna. Seçilmiş əsərləri VI c., Bakı, Avrasiya Press, 2009; Rəhimov S. Açıq danışaq. "Ədəbiyyat və incəsənət" qəzeti, 1957, 5-17 mart; Şıxlı İ. Sənətkar möcüzəsi. "Ədəbiyyat və incəsənt" qəzeti, 1988, 17 iyun; Əfəndiyev İ. Yoldaşlıq söhbəti. "Ədəbiyyat və incəsənət" qəzeti, 1957, 3 avqust; İsmayılzadə İ. Sirlər açılmamış qaldı. "Ulduz" jurnalı, 1972, N 4, s. 51-53; Anar. Qəribə dünyanın adamı. "Ədəbiyyat qəzeti", 2008, 30 may; Hacıyev T. Sözün də su kimi lətafəti var. "Ədəbiyyat və incəsənət" qəzeti, 1998, 17 iyun; Həbibbəyli İ. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya. İsa Muğanna Ölümdən sonrakı həyat. Bakı, Hədəf nəşrləri, 2014; Abdullayev C. Bədii nəsrimizin canlı klassiki İsa Muğanna. İ.Muğanna. Seçilmiş əsərləri VI c., Bakı, Avrasiya Press, 2009; Kazımov Q. Sənət düşüncələri. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1997; Cəfərov N. Yazıçıya məktub. "Ədəbiyyat qəzeti", 2008, 6 iyun, Ulutürk X.R. "İdeal" – sənət sehri. . İ.Muğanna. Seçilmiş əsərləri VI c., Bakı, Avrasiya Press, 2009; Hüseynov A. Xalq həyatının bədii təsviri. "Ədəbiyyat və incəsənət" qəzeti, 1978, 17 iyun; Hüseynoğlu T. Nəsrdə psixologizm. "Ədəbiyyat qəzeti", 1998, 23 avqust; Namazov Q. Muğanna möcüzələri açılır. "Yeni Azərbaycan" qəzeti, 2000, 16 noyabr; Salamoğlu T. "Yanar ürək"dən "İdeal"a: monolojidən dialojiyə. Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı, "E.L." NPŞ MMC, 2014, s. 149-157; Yusifli V. Sənətkar mövqeyi və ədəbi qəhrəman. "Azərbaycan" jurnalı, 1981, N-1,s 160-171; Muğanna S. İsa Muğannanın sənət möcüzəsi. Bakı: BDU nəşriyyatı, 2000, 166s.

ya digər dərəcədə özünün təhlilini tapsa da, ancaq sistemli monoqrafik tədqiqat probleminə çevrilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi müasir Azərbaycan nəsrinin görkəmli nümayəndəsi İsa Hüseynovun (Muğannanın) bədii nəsrində milli koloritin, tarixi-mənəvi dəyərlərin, etnosun milli kimlik düşüncəsinin bədii-estetik mahiyyətini müəyyənləşdirmək və bu istiqamətdə dolğun təsəvvür yaratmaqdır. Belə bir məqsədin reallaşması üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– İsa Hüseynov nəsrində milli koloritin, milli-tarixi yaddaşın, soykökə bağlılıq düşüncəsinin funksional səciyyəsini müəyyənləşdirmək;

– milli kimlik düşüncəsinin alt qatlarını, mental dəyərlərin ədibin nəsrindəki inikas şəkillərini aydınlaşdırmaq;

– xalq yaradıcılığından istifadənin üsul və yollarını dəqiqləşdirmək;

-mifik təsəvvürlərin, əski inancların, tarixi-etnoqrafik realilərin yerini müəyyənləşdirmək;

– xəlqi koloritin yazıçı təhkiyəsindəki rolunu açıb göstərmək;

– xalq epik ənənəsinin, epos yaddaşının yazıçının nəsrindəki yerini müəyyənləşdirmək;

– İ.Hüseynovun bədii nəsrində folklor simvolikasının, etnoqrafik faktların, elat həyatına aid dil, üslub məsələlərinin zənginlik dərəcəsini üzə çıxarmaq;

– xalq yaradıcılığından bəhrələnmənin İ.Hüseynov nəsrinə gətirdiyi bədii-üslubi keyfiyyətləri elmi-nəzəri müstəvidə aydınlaşdırmaq və s.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti xalq yazıçısı İ.Hüseynovun (Muğannanın) nəsridir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İ.Hüseynovun bədii yaradıcılığında milli koloritin, etnosun inam və etiqadlarının, milli mənsubluq, əxlaq, davranış sistemlərinin bir vahid olaraq mahiyyətini aydınlaşdırmaq tədqiqatın başlıca predmeti kimi müəyyənləşdirilmişdir. Burada xalqın zəngin bədii düşüncəsindən bəhrələnmənin forma və üsulları, xalq düşüncəsindəki bədii-estetik modellərin yazıçı təhkiyəsində hansı səviyyədə özünü göstərməsi də bir istiqamət kimi araşdırma predmetinə çevrilmişdir.

**Tədqiqatın metodologiyası.** Dissertasiya tarixi-müqayisəli, nəzəri-tipoloji metodlar əsasında hazırlanmışdır. Müasir ədəbi-nəzəri fikrin elmi prinsipləri, əldə etdiyi nailiyyətlər problemin öyrənilməsində metodoloji əsas rolunu oynamışdır.

**İşin elmi yeniliyi.** Tədqiqat xalq yazıçısı İ.Hüseynovun yaradıcılığını milli kolorit, milli-mənəvi dəyərlər, xalq ruhunun bədii nəsrdə təzahür formaları baxımından təhlilə cəlb edən ilk monoqrafik araşdırma kimi aşağıdakı elmi yeniliklərlə səciyyələnir:

– İsa Hüseynovun nəsrində etnosun milli-mənəvi varlığının mahiyyət hadisəsi olması və onun bütün əsərlərini bir sistem kimi izləməsi üzə çıxarılmışdır;

– zəngin xalq yaradıcılığından bəhrələnmənin səbəbləri aydınlaşdırılmışdır;

– milli-tarixi yaddaşdan istifadənin forma və üsulları açılmışdır;

– xalq yaradıcılığındakı motiv, hadisə və əhvalat zənginliklərinin İ.Hüseynov nəsrində əsas milli kolorit elementləri olaraq nə dərəcədə özünə yer tapması məsələsi elmi-nəzəri əsaslarla müəyyənləşdirilmişdir;

– milli əxlaq və davranış normalarının tarixi kimliyin göstəricisi kimi təqdimi əsaslandırılmışdır;

–xəlqi koloriti əks etdirən dəyərlərin nəsr mətnində funksional-semantik səciyyəsi aşkarlanmışdır;

– İ.Hüseynov nəsrində tarixi yaddaş simvolikasının bədii-estetik səciyyəsi təhlil olunmuşdur.

**Nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi bədii nəsrdə milli-tarixi yaddaşın inikası probleminin, xəlqi koloritin, tarixi kimliyin, milli mənsubluğun İsa Hüseynovun əsərlərinin əsasında öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Tədqiqat işindən müasir Azərbaycan bədii nəsrinin tədqiqi məsələlərində, o cümlədən də yazıçı və xalq mənəvi mədəniyyəti probleminin araşdırılmasında, ali məktəblərin filologiya fakültələrində əlavə tədris vəsaiti kimi istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları məqalə və tezis şəklində AAK-ın tələblərinə uyğun olaraq qəbul edilmiş məcmuə və jurnallarda, xarici ölkə mətbu orqanında, elmi konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**İşin strukuru.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi-nəzəri və metodoloji əsası şərh olunmuş, dissertasiyanın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırılmışdır.

**"Tarixi-mənəvi dəyərlər İsa Hüseynov (Muğanna) bədii nəsrində obrazın millilik göstəricilərindən biri kimi"** adlı I fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Milli şüur və mənlik duyğularının İsa Hüseynov (Muğanna) bədii nəsrindəki ifadəsi"** adlanır. XX əsrin ikinci yarısı ədəbiyyatın, eləcə də bədii nəsrin bütünlükdə millilik kontekstində inkişafı məsələsini başlıca istiqamətə çevirdi. Dövrün bədii nəsri bir-birindən maraqlı yaradıcı şəxsiyyətlərin orijinal düşüncəsi, həyat hadisələrini əksetdirmə fərqlilikləri ilə maraq doğurdu. Burada, əlbəttə, xalq ruhunun gerçək mahiyyəti, etnosun genetik yaddaşı, nağıl və dastan təhkiyəsi bir sistem kimi bədii arenaya gətirildi. Bu proseslərin ən qabaqcıl nümayəndələrindən biri xalq yazıçısı İsa Hüseynov (Muğanna) idi. Onun yaradıcı istedadı, milli düşüncəyə möhkəm tellərlə bağlanması və gedən prosesləri müdrik uzaqgörənliklə dərindən dərketmə qabiliyyəti bütünlükdə bədii düşüncəyə özünün təsirini göstərdi. Tarixi-mənəvi dəyərlər İsa Hüseynov yaradıcılığında obrazın əsas millilik göstəricisi funksiyasında çıxış etdi.

İsa Hüseynov "yeni nəsr"in nümayəndəsi kimi məhz mühiti və sistemi dərk etməklə milli mənlik duyğularının ədəbiyyata gətirilməsinə üstünlük verdi. Ədibin qəhrəmanları insanın insana inamı, amalı, etiqadı müstəvisində bir bütövü, mənlik duyğularını, milli şüurun özünəməxsusluq konsepsiyasını müəyyənləşdirir. "Zəhər" (1964) hekayəsində meşəbəyi Mirqasımın davranışları, hərəkətləri, münasibət və təsəvvürləri bunun nümunəsidir. Yazıçı obrazın daxili dünyasını - şəxsiyyətini, həyata münasibətini onun milli dəyərləri, geyim mədəniyyəti, məşğuliyyəti, həyat tərzi ilə üzvi vəhdətdə təqdim edir. Meşəbəyi Mirqasım yazıçının məfkurəsində milli əxlaqa, milli mənəviyyata köklü bağlılığı olan adamdır. Onun təbiətlə ünsiyyəti bütün məqamlarda cəmiyyətə, onun qayğı və problemlərinə şamil olunan keyfiyyətdir.

Mental dəyərlərin, sosial sferada hökm sürən ümumi mənzərənin bütün problematikasını nəsrə gətirmək və onu yüksək ustalıqla təqdim etmək yolunu tutan sənətkar altmışıncı illər nəsrində cəmiyyət və siyasi mühit kontekstində milli dəyərlərə önəm vermişdir. "Cığırlar", "İki ovçu", "İnciklik", "Milis leytenantı Səlim Qədirov", "Başa düşə

bilmirəm", "Dərd", "Əmiqızı", "Zülfüqar əmi" və s. kimi ilk yaradıcılıq nümunələri onun istedadını, düşüncə zənginliyini ifadə edir. Obrazların milli-mənəvi dəyərlər üzərində hərəkəti, davranış və münasibətləri məhz sonrakı onillikdə bütünlükdə ədəbiyyatın əsas axarlarından biri kimi xarakterizə olunur. Sovet dövründə yazılmış nümunələrdə "insan və onun taleyi kəskin sinfi çarpışmalardan, sosial münaqişə və ziddiyyətlərdən keçirdi, onun daxili aləmi, şəxsiyyətinin mürəkkəbliyi nisbətən kölgədə qalırdı"[1]. İsa Hüseynov məhz bütün sinfi çarpışmalardan, sovet ideologiyasının müəyyənləşdirdiyi prinsiplərdən uzaq olan və milli dəyərlərə köklənən, həyata, həyat hadisələrinə milli-mənəvi əxlaq normalarından yanaşan obrazlar yaratmışdır. Məsələn, yazıçının "İnciklik" hekayəsindəki Qəndəf, "Başa düşə bilmirəm"də Xədicə, "Cığırlar"da Sevər, "Dərd"də Mələk qarı və s. obrazlar milli kolorit üzərində köklənmiş, tarixi mənəvi dəyərlər əsasında həyatını, düşüncələrini nizamlayan bütöv surətlər qalereyası buna nümunədir.

"Koroğlunun çən qalası", "Sirr", "Kafir", "Güzgülü Əhməd", "Şinel", "Unus", "Rzaqulu", "Toy", "Bir az romantika", "Arx", "Həqq-ədalət", "Niyə?", "Cəbhədən məktub", "Qayım qaya", "Yazıq", "Küp", "Yekədiz Məcid", "Şapalaq", "Küllük" və s. hekayələrində müəllifin milli düşüncə konsepsiyası bir sistem kimi bütövdür. Bunlar bütünlükdə etnosun məşğuliyyəti, məişəti, tarixi yaddaşı kontekstində öz ifadəsini tapır.

İsa Hüseynov yaradıcılığı üçün xarakterik olan məsələlərdən biri müəllifin əsərdə görünüş dərəcəsi, obrazlaşması, yazıçı təhkiyəsində müşahidə olunmasıdır. Məhz ona görə də müəllifin tarixi-mənəvi dəyərlərə epik təsvir və təqdim planında üstünlük verməsi təbii və təsirli alınır. "Qayım qaya" hekayəsində sərlövhədən təsvirə, hadisələrin təqdiminə qədər hamısı iki istiqaməti – ovçuluq ənənəsinin yaşarılığını, digəri tarixi yaddaşda xalq təsəvvürlərinin qorunmasını şərtləndirir. Hekayə bütünlükdə mahiyyəti etibarı ilə etnik yaddaşı, milli mədəniyyətin yaşarlığını daşıyan orijinal epik nümunədir. İ.Hüseynov öz təsvirləri ilə yaşadığı dövrün yaddaş hadisələrini, məişət, milli - tarixi mədəniyyət faktlarını mətnə daşıyır. Yazıçının mətnə gətirdiyi əhvalat və hadisə sırf etnosun tarixi yaddaşının bərpasına yönəldilmişdir. Bu, İ.Hüseynovun bütün həyata, milli-mənəvi dəyərlərə, tarixi yaddaşa fərdi düşüncə prizmasından baxmasını fakt olaraq ortaya qoyur və deməyə əsas verir ki, yazıçı özünəməxsusluğunda milli dəyərlərin, tarixi

[1] Yusifli V. Nəsr: konfliktlər, xarakterlər. Bakı, Yazıçı, 1986, s. 18

yaddaşın təkrarsız epik sistemi vardır. Sırf fərdi keyfiyyət kimi onun açılması bütünlükdə yazıçı düşüncəsinin, yaradıcılıq dünyasının məqsəd və məramının aydınlaşmasıdır.

İsa Hüseynov yaradıcılığı üçün ən mühüm cəhətlərdən birisi sənətkar mövqeyi ilə bağlıdır ki, onun əsərlərində əvvəlki onilliklərin bədii düşüncəsindən fərqli olaraq siyasi mühitin mahiyyəti dərk olunmuş və gerçəkliyin siyasi boyalarının açıq təqdimi meyli güclənmişdir. Yazıçının gerçəkliyə münasibətinin, həyata baxışının bədii mətnə gətirilməsi, heç şübhəsiz, ilk olaraq tarixi-milli dəyərlərin qabardılması və obrazların əsas göstəricisi kimi təqdimi ilə bağlıdır. Ona görə də bu dövrdə bir istiqamət olaraq yazıçı dərkində milli şüur və mənlik duyğularının ifadəsinin güclənməsi meylləri özünü göstərir. Hətta bu meyllər yaradıcılıq prosesinin müəyyən məqamlarında gizli və yarımgizli formadan çıxaraq açıq şəkildə müşahidə olunur. Məhz böyük tənqidçi M.Hüseyn həmin özünəməxsusluğu "Anadil ötən yerdə" (ilk qələm təcrübələrindən biri) hekayəsi timsalında "ədəbiyyata gəlməyin münasibətilə təbrik edirəm"[1] cümləsində tam təfərrüatı ilə ifadə etmişdir. Bu da təsadüfi deyildir, çünki M.Hüseyn yazıçının nə demək istədiyini və mətndə nələrin baş verdiyini, hadisələrin haradan qaynaqlandığını, anadillə bağlı İsa Hüseynovun yaşadığı regionda yaşanan əfsanə və rəvayətlərin bolluğunu və onun mətn semantikasında nələri işarələdiyini aydın dərk etmişdir. Anadil bu anlamda düşüncə tipi kimi obrazlaşdırılmışdır. İsa Hüseynovun yaradıcılığında anadil müxtəlif zaman kəsimlərində, hətta yaddaş hadisələri ilə bağlı olan vəziyyətlərdə daha çox görünür. Bu da məhz yazıçı düşüncəsində anadilin bir obraz kimi real mahiyyətindən çox semantik təsəvvürlərlə bağlanmasından irəli gəlir. "İsahəq, Musahəq" romanında anadil yaddaş hadisəsi olaraq təkrarən bədii əsərdə verilir. Məlum olduğu kimi, xalq arasında buna bənzər İsaq, Musaq quşları ilə bağlı əfsanə və rəvayətlər vardır. Məsələnin mahiyyətində dayanan xalq yaddaşında olan bu epizodun yazıçı düşüncəsində təqdimidir. Əlbəttə, İ.Hüseynov bundan üslubuna, təsvirini vermək istədiyi hadisənin mahiyyət və imkan dərəcəsinə görə yararlanır. Bu əfsanə yazıçının hansısa vermək istədiyi hadisənin təqdimi üçün məsələ, nümunəyə, mahiyyət hadisəsinə çevrilir.

Göründüyü kimi, hər bir epizodun, xalq yaddaşında olan hadisə, əhvalat, nağıl, rəvayət, nəğmə və bütünlükdə folklor nümunəsinin yazıçı

[1] Muğanna İ. İlan dərəsi. Bakı, Hədəf nəşrləri MMC, 2013, s.41

yaradıcılığında təqdimi sözün həqiqi mənasında yazıçı məramına, məqsədinə xidmət edir və məqsəd olaraq düşünülmüş şəkildə fakta çevrilir. “50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən etibarən Azərbaycan nəsrində baş verən keyfiyyət dəyişikliyinin başlıca mahiyyətini ədəbi tənqid haqlı olaraq insanın ön plana çəkilməsində gördü. Nəsrin yaxın keçmişi ilə bu günü arasında müqayisələr aparılması, arxada qalmış mərhələnin səciyyəvi qüsurlarının üzə çıxarılması dəyişiklik və inkişafı daha aydın qavramağa kömək etdi... Nəsrin yeni mərhələsində qəhrəman müəllifin oxucuya çatdırmaq istədiyi ideyaların ruporu olmaqdan xilas edilir... İnandırıcı boyalar, real cizgilərlə işlənmiş bədii xarakterlər sosial problemləri ifadə etməyin səmərəli yolu sayılır”[1]. İsa Hüseynov yaradıcılığına bu mövqedən yanaşdıqda bütünlükdə 60-cı illər nəsrinin mahiyyəti, spesifikası aydınlaşır. Nəsrin və bütünlükdə bədii düşüncənin uğurları insanın ön plana gətirilməsi, qəhrəmanın sosial mühit və onun problemləri müstəvisində müəllif ideyalarına, bir bütöv olaraq milliliyə bağlanmasıdır. İ.Hüseynov bütün əsərlərində bu və ya digər dərəcədə gördüklərinin, şahidi olduqlarının, həyatında baş verənlərin yazıçı təxəyyülündən bədii arenaya gətirilməsi halları müşahidə olunur. Məhz bunlar onun əsərlərinə canlılıq gətirmiş, milli kolorit zənginliyi ilə boyanmasına şərait yaratmışdır.

Xalq məişəti, adət-ənənələr, zəngin elat həyatı, dağ-aran köçləri, qaynar məişət qayğıları, mərasimlər, bayramlar, inanclar və s. hamısı İ.Hüseynov bədii nəsrində xəlqi koloriti təşkil edən əsas qatlardır. Mətn konstruksiyasında onlar yazıçının təsvir və təqdimi, canlı həyat hadisələrinin ifadəsi üçün vasitə rolunu oynayır. İ.Hüseynov yaradıcılığının gücü məhz milli koloriti, xalqın milli-mənəvi dəyərlərini müxtəlif səviyyələrdə təqdim edə bilmək bacarığındadır. “Toy” hekayəsi tarixi mənəvi dəyərlərin inikası baxımından mühüm əhəmiyyət kəsb edir. Yazıçı “Toy” hekayəsində deyilənləri sadəcə olaraq bədii əsər adına mətnə gətirmir. Burada milli koloritin bütün tərəfləri ilə ifadəsini vermək bir məqsəd olaraq görünür. Etnoqrafik cizgilər, bir ailə, nəsil, kənd timsalında toyun təsvirində Şamilin canlı obrazı yaradılır və onun milli şüur, mənlik duyğuları müstəvisində yanaşması dayanır. Bu hekayə etnoqrafik cizgilərin bolluğu, toy mərasiminin bütünlükdə mahiyyətini vermək baxımından klassik nümunədir. Yazıçı burada yaddaş hadisəsi kimi əvvəlki, uşaqlıq illərində şahidi olduğu mərasimlə müsair zamanın

---

[1] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər. Bakı, Elm, 1991, s. 52

toy adətlərini, fərqliliklərini, məsələn, cıdırı, atların şahə qaldırılmasını, güləş səhnələrini və s. verməklə bir növ dəyişmə və yeniləşmə prosesini də bədii axarda fakta çevirir. Oxucu bu müqayisələrlə tarixi yaddaşı, ənənəni izləyir.

Sənətkar xalqın zəngin yaradıcılığından həm də obrazlı düşüncə tərzi kimi bəhrələnir. İ.Hüseynov bədii nəsrdə milli koloritə üstünlük verməklə, tarixi yaddaşı, etnos təsəvvürlərini yaşatmaqla bir növ ədəbi-mədəni sferaya özünün yeni düşüncə modelini, mühitə fərqli yanaşmalarını gətirdi. Əlbəttə, sovet dönəminin müəyyənləşdirdiyi tipoloji modeli, bədii konstruksiyanı, "sovet adamı", "sovet düşüncəsi", sosialist realizmi və s. kimi prinsipləri pozmaq və oraya millilik, tarixi - mənəvi dəyərləri üstün mövqeyə çıxarmaq o qədər də asan deyildi. İ.Hüseynovun yaratdığı bədii nümunələr əldən-ələ gəzdi. Çünki o, sovet dönəmindəki sosial sferanın formalaşdırdığı sistemi Azərbaycan ədəbi-mədəni mühitində çox ustalıqla pozmuşdu. Milli düşüncədən, epos təsəvvürlərindən, nağıl təhkiyəsindən gələn istedadlı qələm sahibi kimi o, yaddaş hadisələrinə üstünlük verməklə özünü və özünün yolunu seçdi. Akademik İsa Həbibbəyli "İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya" adlı yazısında haqlı olaraq yazır ki, "Çətin və mürəkkəb mərhələdə İsa Hüseynov canlı həyat nəfəsi üstündə köklənmiş maraqlı, cəlbedici əsərləri ilə real gerçəkliklərin təsviri və sadə insanların adi həyatı ilə ifadə olunan ciddi, mühüm mətləblərin böyük ədəbiyyatını yarada bilmişdir"[1]. Bədii sferada məhz bu keyfiyyətlər İ.Hüseynov üslubunu müəyyənləşdirdi. M.Hüseynlə söhbətindəki "oçerki niyə atandan yazmısan" sualına birmənalı "çünki atamı yaxşı tanıyıram" cavabı onun bütünlükdə sonrakı dövr üçün gedəcəyi yola aydınlıq gətirdi. "Koroğlunun çən qalası" əsəri də məhz həmin genetik yaddaşın, yaxşı tanımağın hadisəsi kimi ədəbi sferaya daxil oldu. Bu hekayə milli düşüncədə Koroğlu, Koroğlu qalası, Çənlibellə bağlı olan təsəvvürləri özündə bir sistem kimi cəmləşdirir. İ.Hüseynov yaradıcılığı üçün spesifik cəhət məhz milli düşüncədə olanların, milli-tarixi yaddaşın olduğu kimi təsvirini vermək deyildir. Onun yazıçı istedadında hər bir mətnin, mətn nümunəsinin bədii fakt kimi yeri və məkanı vardır. Onların

[1] Həbibbəyli İ. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya. Bax: İsa Muğanna Ölümdən sonrakı həyat. Bakı, Hədəf Nəşrlər evi, 2014, s.3

mətnə gətirilməsi, bədii arenada işləkliyi bütün tərəfləri ilə yazıçının məqsəd və məramına bağlanır.

İsa Hüseynovda milli kolorit mənlik, özünəməxsusluq, fərdi və spesifik yaradıcılıq keyfiyyətidir. Məlum olduğu kimi, hər bir azərbaycanlının yaddaşında, bütünlükdə türk xalqlarının təsəvvüründə milli düşüncəyə bürünmüş, yarıtarixi, yarımifik bir Koroğlu və Çənlibel, Qırat, Misri qılınc vardır. İ.Hüseynov da bunları milli şüurun hadisəsi olaraq məqsədli şəkildə yazıya alır. Xalq yaddaşında olan "Koroğlu"ya "Koroğlunun çən qalası"nı əlavə edir. İ.Hüseynov çağdaş ədəbiyyatın görkəmli nümayəndəsi kimi, yaddaşında olanları, təsəvvüründə zaman-zaman daşınanları ömrünün ahıllıq çağlarında bir təsadüfün hadisəsi kimi ədəbiyyata gətirməmişdir. Əksinə, burada əsrin doxsanıncı illərinin ağrıları, Qərbi Azərbaycan itkisi, Qarabağ müharibəsinin qanlı-qadalı faktları vardır. "Koroğlunun çən qalası" həmin hadisələrdən, xalqın və dövlətin düşmənə qarşı mübarizəyə köklənməsindən qaynaqlanır.

Yazıçının bütün əsərlərində xəlqi elementlər, xalq düşüncəsindən gələn keyfiyyətlər həyati axarda bütünlüklə epizod, hadisə səviyyəsində özünü göstərir. İ.Hüseynov düşüncəsində bitib qurtarmayan canlı həyat faktları xatirə, əhvalat, nağıl, əfsanə, rəvayət, dastan və s. nümunələri ilə dolu bir keçmiş vardır. Bütün yaratdığı nümunələr həmin sirli-sehrli keçmişi bədii sferaya gətirməyə və onunla bağlı dolğun təsəvvür yaratmağa xidmət edir. "Cəbhədən məktub" hekayəsi milli düşüncə, mənəvi dəyərlərin ifadə hadisəsi kimi məlum bir tarixi olay çərçivəsində bütöv bir mənzərəni canlandırır. "Cəbhədən məktub" müharibənin ağrılarını, durna köçü anlamında qəribliyi, xalq düşüncəsində olan həsrət, kədər motivlərini simvolizə edir. M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir və bu sıradan olan digər sənətkarlarımız da milli düşüncə müstəvisində qəriblik mahiyyətini məhz bu tip nümunələrlə yaddaşda qəlibləşdirmişlər. Bir növ milli şüurun hadisəsi kimi daşlaşdırmışlar. "Koroğlu" dastanında "göynən gedən beş durnalar, bizim ellər yerindəmi" mətni də eyni poetik duyğunu işarələyir. Bütün bunlar bir sistem kimi bədii düşüncədə özünə yer alır. Bir növ qəliblənmiş milli koloriti, tarixi yaddaşı ifadə edir. İ.Hüseynov da məhz bu kontekstdə sələfləri ilə eyni ruhun adamı kimi "Cəbhədən məktub"da bu modeldən bəhrələnir.

İ.Hüseynovun yaradıcılığı üçün ən mühüm xüsusiyyət onun bədii təsəvvürlər sistemində bütün olanların öz təbiiliyi ilə yer alması, milli koloritlə təchiz olunmasıdır. Bütün bunlar onu deməyə əsas verir ki, milli realiləri əks etdirən bütün epik təqdimat formaları İsa Hüseynov yaradıcılığının xəlqi keyfiyyət və milli dəyər qaynağıdır.

**“Milli əxlaq və davranış normaları tarixi kimlik göstəricisi kimi”** adlanan ikinci yarımfəsildə, milli mənsubluğun genetik mahiyyəti açılır. Qeyd etdiyimiz kimi, İ.Hüseynov sovet ideoloji sisteminin müəyyənləşdirdiyi birmənalı düşünmə modelini pozmaqla milli davranış və əxlaqi dəyərləri əks etdirən bədii nümunələrlə yadda qaldı. İsfəndiyar kişi, Qılınc Qurban, Axsaq Hacı, Bəkir, Gövhər, Şolloy, Səməd, Meşəbəyi Mirqasım, Şamil, Zəhra, Şərqiyə, Kollu Koxa, Sultan Əmirli, Cavanşir və s. zəngin obrazlar qalareyası mühiti, etnosun həyat kredosunu, qaynar məişətini, bütünlükdə mahiyyətini ifadə edir.

İsa Hüseynov insanın mənəvi aləmini, iç dünyasını bütünlükdə etnosun dəyərlər sistemi ilə bağlı vermək baxımından əvəzsiz istedad sahibidir. Sanki yazıçı düşüncəsi mətndə bir vahid olaraq kodlaşdırılır. Milli-əxlaq və davranış formalarının ifadəsi və müəyyənliyi baxımından Qılınc Qurban, Cavanşir, Sultan Əmirli kimi obrazlardan daha çox Kollu Koxa, Feldşer Hacı, İsfəndiyar kişi geniş mahiyyətlidir. O bütün əsərlərində folklor təfəkkürü, şifahi dil modelləri, nitq janrları və aktları ilə mənəvi dəyərlərin daşlaşmış formullarını təqdim edir.

İ.Hüseynov milli əxlaq və davranış normalarının, mövcud tarixi kimliyin qorunmasına bütün vəziyyətlərdə üstünlük vermiş, oradakı deformasiyalara qarşı Kollu Koxa kimi sadə, lakin sadə olduğu qədər də mübariz və xalq hikməti ilə dolu, içi böyüklüyə, milli duyğuya hesablanmış obrazlar yaratmışdır. Kollu Koxa bütün müstəvilərdə yazıçı məramının ifadəçisinə, fikir daşıyıcısına çevrilir. Özünün funksiyası ilə Qılınc Qurban, Cavanşir qədər mühitə gərəkli olduğunu göstərir. Qılınc Qurban ciddilik, qətiyyət, böyüklük, elata ağsaqqal kimi yolgöstərici funksiyasında çıxış edir. Kollu Koxanın funksiyası xalq gülüşü, haqsızlığın, əxlaqın, mənəviyyatın aşağılanmasına qarşı yönəldilmiş mübarizədir. Burada xalqın tarixi kimliyinə hesablanan və onu bütün tərəflərilə əks etdirən iki xətt (Qılınc Qurban və Kollu Koxa xətti) yazıçı tərəfindən paralel aparılır. İ.Hüseynovun yazıçı böyüklüyü xalqın əxlaqi-dəyərlərini, qəhrəmanlıq, mərdlik keyfiyyətlərini tarixi mənlik duyğusu kimi bədii arenaya gətirə bilməsidir. Elə əsərin bütünlükdə mahiyyəti, demək olar, onun şəxsində ifadə olunur. İsa Hüseynov sosial sferanın mənzərəsini bir qədər fərqli (əslində belə deyildir), bir qədər qeyri-ciddi, komik görünən Kollu Koxa vasitəsilə açır. Daha doğrusu, etnos tərəfindən Qılınc Qurbanla bağlı qəbul olunmuş “xalqla birgə vuran ürək” düşüncəsi Kollu Koxanın şəxsində pozulur. Kollu Koxanın düzüb qoşduğu silsilə ayamalar (ləqəblər) etnosda pozulmaqda olan nizama münasibətdir. Xalq gülüşünün təsir məsələsidir. İ.Hüseynov bütün

əsərlərində milli koloritin böyük daşıyıcısı olaraq görünür. Ona görə də onun əsərlərində elat həyat tərzi, xalqın canlı məişəti, adət-ənənəsi, davranışları, mərasimləri bir sistem olaraq özünə yer tapır.

İ.Hüseynov yaradıcılığında kənardan, haradansa uzaq məmləkətlərdən, hansısa xəyalın məhsulu olan və kim tərəfindənsə söylənilən hekayət səciyyəli hadisələrin olması çox azdır, bəlkə də yoxdur. Demək olar, yazıçı hamısını elat yaddaşından, uşaq təsəvvürlərindən, eldə-obada eşidib gördüklərindən çıxış edərək bədii arenaya gətirmişdir. İ.Hüseynov yaradıcılığında bütün təsvirlər, hadisələrin təqdimi, motivləşmə öz gücünü milli düşüncədən, etnosun əxlaq və mədəniyyət dəyərlərindən alır. O, obrazların təbiiliyində tarixi kimliyin göstəricisi kimi milli əxlaq və davranış normalarına üstünlük vermişdir. Türk xalqlarının əxlaq sistemində ailənin, ailədaxili davranışların, ata-ana, oğul-uşaq, böyük-kiçik münasibətlərinin daşlaşmış qanunları vardır. “Saz” povestində İsfəndiyar kişinin ağsaqqallığı, davranışları timsalında bu daha aydın görünür. İ.Hüseynov İsfəndiyar kişinin şəxsində bir ailənin nizamını vermiş və xalqın milli davranış sistemində ailə münasibətinin mahiyyətini açmışdır. İsfəndiyar kişinin davranışları, ailədə oğula, gəlinə, nəvəyə münasibəti, el-obada ağsaqqal kimi sözü-söhbəti mühit üçün bir dəyər, mənəviyyat kredosudur. Yazıçı bütün düşüncələrini, amal və istəyini İsfəndiyar kişi, Saz, Feldşer Hacı və Qılınc Qurbanda verir. Saz əsərin mahiyyətini ifadə edən, bütünlükdə etnosun mənəvi davranış sistemini etnosun özü ilə daşıyıb gətirən bir güc, əxlaq qaynağıdır. Orada sazın ifadə etdiyi funksiya sadəcə bizim təsəvvür etdiyimiz musiqi aləti olmadan çıxır. Əksinə, daşıdığı məna bütünlükdə əsrlər, nəsillər arasında rabitə yaratmaq və dəyərləri qoruyub yaşatmaq üçün determinator funksiyası daşıyır. Onun mətndə funksional səciyyəsi daha böyükdür, bir növ iç aləmini, ağrıları, daha görünməz alt qatları hərəkətə gətirmək, ifadə etmək imkanındadır.

Xalqın mənəvi-mədəni varlığının, milli tarixi taleyinin ifadəsi və görünüşü anlamında yazıçının hər bir əsəri bir bütövdür. “Tütək səsi” povesti müharibənin gətirdiyi fəlakətləri bir mətn hadisəsi olaraq tam şəkildə ifadə edir. Bu epizod təkcə müəllifin şəxsi həyatı fonunda müharibəni ehtiva etmir, burada məsələ daha geniş mahiyyətlidir, bütünlükdə bəşər düşüncəsində həmin anlayışın yaratdığı təsəvvürü işarələyir. “Əppək, əppək” deyə ağlayan körpənin sızıltısında ananın və böyük qardaşın (on beş yaşlı) əlacsızlığı tam aydınlığı ilə mental dəyərlər çərçivəsindədir. “Tütək səsi” povesti də “Saz” qədər Azərbaycan

ədəbiyyatı üçün əhəmiyyətli bədii nümunədir. Müharibə, onun törətdiyi fəlakətlər, mənəvi sıxıntıların sonsuzluğu Tahir müəllimin, Muxtar kişinin ailəsi və bütünlükdə bir kənd timsalında açılır. Tapdıq, Nuru, Cümrü, Söylü (Sürməli Söylü), Mehbalı, Əsmət, Məsi, Cəbrayıl və s. obrazlar müxtəlifliyi bütünlükdə cəmiyyətin özündə olan rəngarəngliyi və dəyər kateqoriyasında mövcud kultun qorunuş və müqəddəslik dərəcəsini aydınlaşdırır. Müharibədən qara kağızı gələn iki ailə timsalında yazıçı xalq məişətindəki davranış və düşüncə modellərini verir.

Nurunun "bir qayda olaraq özümü atama bənzətməyə çalışırdım" deməsi əxlaqın, milli-mənəvi dəyərlərin genetik yaddaşa bağlılığını, bir dəyər olaraq atadan oğula keçdiyini düşünməyi aktlaşdırır. İ.Hüseynov nəsrində hər bir sözün, cümlənin, epizodun, obrazın öz yeri və yerinə yetirdiyi funksiya var. Tütək də mahiyyət etibarilə xalq düşüncəsinin, hissinin hadisəsi olaraq funksional səciyyə daşıyır. Etnosun genetik yaddaşı, tarixi qədər bütün ağrıları, həyatının müxtəlif vəziyyətlərini, şən və kədərli, sevincli və ağrılı anlarını daşıyıb günümüzə çatdırır. Küll olaraq milli varlığın, etnos əxlaqının dəyər və düşüncə sisteminin ifadə faktına çevrilir.

"Saz", "Tütək" yazıçı tərəfindən məqsədli olaraq mətnə ( əsərin adına) gətirilib, milli şüur hadisəsi kimi işlədilmişdir. Çünki bunlar musiqi aləti olaraq xalqın mənlik duyğularının ifadə hadisəsidir. "Saz" povestində sazın funksional səciyyəsi ilə, "Tütək səsi"ndə tütəyin işarələdiyi anlam böyük mənada eyni tiplidi. İsfəndiyar kişi Rəhmanla Bəhmən müharibəyə gedəndən sonra sazı evin divarında yuxarı bir yerdə mismar vurub asır. Cümrü də atası müharibəyə gedəndən sonra tütəyi atır. İsfəndiyar kişi Milli ilə söhbətdən sonra sazı bura gətir "tilsim sındı"[1], - deyib çalmağa başlayır. Cümrü də atasının qara kağızından və ailələrində baş verən faciədən sonra səhərə qədər tütək çalır. Bütün bunlar bir sistemin vahidi kimi, mətn tipi olaraq eyni ağrını, düşüncəni ifadə edir. Tapdıqla Nurunun söhbətində Tapdığın "zalımlığa öyrəşmə hissini" ifadəsi yazıçı tərəfindən mətnin axarında haqsızlığa qarşı mübarizənin gərəkliyi duyğusunu aşılayır. Mehbalı əmi ilə Qalayçıoğlunun şəxsində də bir ağsaqqal kimi bu motiv görünür.

İ.Hüseynovun yaradıcılığında qəhrəmanlar müxtəlifliyi, xarakter fərqliliyi ilə seçilsə də, milli düşüncədə, əxlaq və davranış normalarının

[1] Hüseynov İ. Seçilmiş əsərləri. 3 cilddə, II c., Bakı, Azərnəşr, 1988, s.57

qorunuşunda müsbət mənada bir  mühafizəkarlıqla görünürlər. “Quru budaq” povestində də  quru budağın mahiyyətində daşınan yaddaş mənəviyyat hadisəsidir. Nuru, Tahir, Əsmət, Molla Gülən, Qurbanlı sovetliyinin sədri Qılınc Qurban, Cümrü, Tapdıq bu və ya digər dərəcədə o quru budağın semantik varlığında olanlarla bir sıradadır. Burada bütün əsər boyu vurğulanan və yazıçı ideyasının nüvəsini təşkil edən yaddaş vardır. Bu nəslin, elatın, etnosun əxlaq, mənəviyyat yaddaşıdır ki, müxtəlif formullarla, məsələn, quru budaqla və ya sazla, tütəklə, dəflə, Kollu Koxa ilə Nuru ilə, Bibi ilə və s. ifadə olunur. “Faciə” povestində də belədir. Zəlimxan, atası Sabit Mayılov, Əziz Mayılov və Zümrüd arasındakı söhbətlər özlüyündə bütün tərəfləri ilə tarixi kimliyin klassik göstəricisidir. Bütün bunlar İsa Hüsenov yaradıcılığında milli əxlaq və davranış normalarının konseptual mənzərəsini, tarixi kimliyin mahiyyətni aydınlaşdırır.

**“Nəsr təhkiyəsində milli koloritin ifadə üsulları”** adlanan II fəsildə də problem iki yarımfəsildə ümumiləşdirilir. İlk olaraq **“Milli realilərin nəsr mətnində funksional-semantik mövqeyi”** məsələsinə diqqət yetirilir. İsa Hüseynovun bütün əsərləri öz qaynağını  xalqın zəngin etnoqrafik mədəniyyətindən alır. Burada maraqlı məsələ xəlqi realilərə, etnoqrafik faktlara yazıçının yanaşma tərzidir. Çünki İsa Hüseynov-Muğanna xəlqi koloriti hadisələrin axarına və yerinə görə o qədər ustalıqla təqdim edir ki, bütün epizodlar unikallığı, düşüncə və davranış özünəməxsusluğu ilə diqqəti çəkir. Böyük yazıçının yaradıcılığı və özünün bu sistemə münasibəti, yanaşmaları birmənalı olmamışdır. İsa Hüseynovun  yaradıcılığında hadisələr, motivlər, obrazlar bir sistemin vahidi olaraq canlılığı ilə maraq doğurur. Yazıçının bütün yaradıcılığı ilk qələm təcrübələrindən tutmuş, kamillik mərhələsinin nümunəsi olan “Məhşər”, “İdeal”, “Cəhənnəm”, İsahəq, Musahəq”, “Qəbiristan”, “İlan dərəsi və peyğəmbərin taleyi”, “Qırx kisə qızıl” və s. daxil olmaqla hamısı etnoqrafik material bolluğu ilə səciyyələnir. Ümumiyyətlə, İsa Hüseynovun  yaradıcılığında  bədii materialın, hansısa mövzuya gətirəcəyi həyat həqiqətinin idrak və inikasında ciddi fərqlər nəzərə çarpır. Bunu onun əvvəlki yaradıcılığı ilə sonrakı, təxminən doxsanıncı illərdə və ondan sonrakı  mərhələdə yazdıqlarında aydın görmək olur. Yazıçının bütün əsərlərində, eləcə də ayrı-ayrı əsərlərinin qəhrəmanlarının adında da simvolik məna, hansısa məramın ifadəsi daşınır.  Mətn müstəvisində bu adların ikiləşməsi  “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Quru budaq”, “Faciə”, “Şəppəli”, “Güzgülü Əhməd”, “Yekədiz Məcid”, “Unus”, “Şapalaq”, “Əmiqızı” və s. əsərlərində bir

istiqamət kimi davamlı şəkildə nəzərə çarpır. Onu da əlavə edək ki, milli koloriti, mühiti, elat həyat tərzini ifadə etmək və təbii şəkildə təsəvvür yaratmaq məqsədi daşıyır. Doğurdan da, "obrazların adlandırılması daha çox qarşılıqlı münasibətlərdən doğur və əks tərəfin qəhrəmana münasibətinin səciyyəsini aşkarlamaq gücündədir".[1] "Kollu Koxa" povesti məhz İsa Hüseynov yaradıcılığında bu adlanmanın tipik nümunəsidir. Xalq arasında ləqəb qoşma, sonrakı mərhələdə bir başqa adla adlanma bir ənənə kimi bu gün də yaşamaqdadır. Adların ikiləşməsi hadisəsi türk xalqlarının həyatında, məişətində özünü göstərən məsələ olub və insanları xarakter xüsusiyyətləri ilə səciyyələndirmək məqsədi daşımışdır. İ.Hüseynovda bu milli koloritin komponenti kimi təsir bağışlayır. Digər əsərlərində nisbətən seyrək görünən ləqəb qoşma məsələsi, artıq "Kollu Koxa"da obrazlaşır. Kollu Koxa milli-mental dəyərlərə söykənən və yazıçının bədii personajlar şəbəkəsində rəmzləşmələrlə səciyyələnən obrazdır.

İ.Hüseynovun yazıçı kimi böyüklüyü məhz maddi və mənəvi mədəniyyətlə bağlı fakturaya lazımi qədər bələdliyi və nəsr təhkiyəsində ona üstünlük verməsidir. Ona görə də milli kolorit onun əsərlərində bir bütöv olaraq fakta çevrilir, ədəbi-bədii sferada maraq doğuran problem kimi əhəmiyyət daşıyır. Tədqiqatçıların əksəriyyəti İsa Hüseynov yaradıcılığında maddi və mənəvi mədəniyyət faktoruna üstünlük verməsini yazıçının zəngin mədəniyyətə bələdliyindən və onu təqdim etmə bacarığından irəli gəlməsi ilə izah edir. İ.Hüseynov xalq məişətinə, zəngin xalq mədəniyyətinə, milli ənənədən gələn mənəvi dəyərlərə yaradıcılığında həmişə üstünlük verən sənətkarlardandır. Əsərlərindəki canlılıq, həyat hadisələrinin təbiiliyi, obrazların hər birinin spesifik dəyərlərlə görünüşü məhz bir sistem olaraq milli koloritin üstünlük təşkil etməsindən, etnoqrafik materiallara lazımı qədər müraciət bacarığından irəli gəlir.

Görkəmli sənətkarın bədii düşüncəsinin məhsulu olan bütün nümunələrə böyüklük və kiçikliyindən asılı olmayaraq işarələdiyi informasiya yükü müstəvisində yanaşmaq lazımdır. Onun zəngin bədii irsi öz içərisində müxtəlif səciyyəli, zənginliklə dolu etnoqrafik elementləri, folklor nümunələrini (alqış, qarğış, inam, atalar sözü, məsəl, bayatı, nəğmə, əfsanə, rəvayət, nağıl, dastan, lətifə və s.) əhatə edir. Burada, göründüyü kimi, diqqəti cəlb edən məsələ və açılmalı olan problem

[1] Salamoğlu T. Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı: MMC, 2014, s. 149

həmin örnəklərin, zəngin mədəniyyətin mətndə yeri, yazıçı yanaşmasında ifadə etdiyi anlam məsələsidir. Mətnə gətirilərkən o yeni əlavələrlə, milli-mənəvi dəyərlərin ifadəsi məqsədi ilə görünür.

Onu da əlavə edək ki, İ.Muğannanın yaradıcılığı bütün mərhələlərdə birxətli qəbul olunmamışdır. Onun son dövrdə yazdığı əsərlərdə öz əksini tapan təsvirlər, həyata, dünyaya, dünyanın yaranışına münasibətlər, xalqların, millətlərin kökü haqqında mülahizələri hansısa mətləblərə, qaranlıqlara işarədir. "Vahid kök", "müsəlman milləti məsələsi" adlı məqaləsində, eləcə də "Qəbiristan", "GurÜn", "Cəhənnəm", "İsahəq, Musahəq" romanlarında da digər mübahisəli məsələlərə baxmayaraq, sırf etnoqrafik təsvirlər, folklor faktları ilə əsərlərinə bədii dəyər gətirmiş və əvvəlki üslubuna sədaqət göstərmişdir.

Xalq mədəniyyəti İ.Hüseynovun təkcə bədii yaradıcılığında əsaslı yer tutmur, həm də müxtəlif səpkili yazılarında, müsahibələrində də özünə yer tapır. Bu təsvirlər bir istiqamətdə yazıçının uşaqlıq illərinin etnoqrafik faktlarıdırsa, digər istiqamətdə özündən əvvəlkilərin söyləmələri əsasında daşlaşmış yaddaş hadisələridir. Onun əsərlərində öz əksini tapan Çınqıllı dərə, Göy Qılınc bir termin olaraq toponim kimi yazıçının uşaqlıq yaddaşının faktlarıdır. Gedib gəzdiyi yaylaq yerlərinin adıdır. Yazıçının dediklərinin mahiyyətində isə bütünlükdə tarixin, böyük dönəmlərin, min illərin formalaşdırdığı yaddaş, düşüncə, dərk vardır.

Etnoqrafik xarakterli hekayələri, epik mənzərələrin sistemli təsvir faktları, olduqca maraq doğuracaq etnopsixoloji düşüncə hadisələri bütünlükdə milli koloriti ifadə etmək məqsədi daşıyır. Soykökə qayıdış, tarixi yaddaşın qorunması, ilkin və orta çağ dövrünün təsəvvürlərini özündə ifadə edən mifoloji obrazlar, rəmzi mahiyyət, milli-mənəvi dəyərlər İ.Hüseynovun yaradıcılığında özünəqayıdışın hadisəsi kimi qabardılır.

İkinci fəslin ikinci yarımfəsli "**Yazıçı təhkiyəsi və folklor üslubu**" adlanır. "Azərbaycan ədəbiyyatı ən qədim dövrlərdən başlayaraq xalqımızın zəngin folklorunun, şifahi söz sənətinin humanist, ümumbəşəri ideyalarından, poetik forma əlvanlığından, obrazlılıq xüsusiyyətlərindən, fikri və hissi ifadə etmək məharətindən bəhrələnmiş, öz ideya-fəlsəfi məndəricəsini, janr və poetika sistemini hərtərəfli surətdə inkişaf etdirə bilmişdir."[1]Zəngin folklor mədəniyyəti, bədii düşüncənin estetik dəyər sistemi İ.Hüseynovun əsərlərinə bir

---

[1] Hacıyeva M. Folklor poetikası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2006, s.8

rəngarənglik, sənətkarlıq və düşüncə fərqliliyi qatmışdır. Əfsanə, rəvayət, nağıl, dastan və s. kimi folklor janrlarında özünü göstərən düşüncə, ifadəlilik, rəng və boyalar bütünlükdə yazılı ədəbiyyatın ümumi mənzərəsinə, mahiyyətinə təsir etmişdir. Oradakı zənginlik təhkiyə və üslub anlamında da sənətkarların bədii yaradıcılıq laboratoriyasında bu və ya digər şəkildə özünü göstərmişdir. Yaradıcılığının son dövrünün bədii hadisələrini bu sistemin bir hissəsi kimi nəzərdən keçirmək bizə onu da deməyə əsas verir ki, yazıçının həyata, dünyaya baxışlarında özünü göstərən fərqlilik onun yazı təhkiyəsinə elə də güclü təsir göstərmədi. Məsələn, "Güzgülü Əhməd" hekayəsinə nəzər salaq: "Ayıbalası"ndan – çiy kərpicdən tikilmiş, alçaq tavanlı, on-on iki adam uzunluğunda, yeddi-səkkiz addım enində otaq. Divardan-divara qədər döşəmənin yarısını tutmuş nəhəng bir taxt, kilim. Kilimin üstündə cərgə ilə döşəklər, mitil yorğanlar. Yorğanların altında böyüyünün on iki yaşı, kiçiyinin iki yaşı olan altı uşaq, arıqlıqdan sümükləri çıxmış anam, qocalıqdan qolları-qıçları tutulmuş nənəm, yeganə az-çox işə yarayan qoca bibim. Nəhayət o doqquz baş külfətin onuncusu... Yəni mən yazıq"[1]. Bütün bunlar İsa Hüseynov yaradıcılığında üslubu göstərən faktlardır.

İ.Hüseynov bütün bu müxtəliflikdə ciddi üslubla mühiti və onun problemlərini, cəmiyyətin təlqin etməyə çalışdığı düşüncəni yaddaş kodları hesabına dərinləşdirmişdir. Bir növ özünün yazıçı üslubu ilə milli davranışın tipik nümunələrini hadisə, əhvalat, motiv konstruksiyasında bədii arenaya gətirdi. Epos təhkiyəsində özünü göstərən milli yaddaş, əxlaq və mənəviyyat, etnos təsəvvürlər sistemi, davranış mexanizmləri hamısı İ.Hüseynov üslubunu bütövləşdirən və onun yazıçı laboratortiyasını zənginləşdirən mədəniyyət hadisəsi kimi qabardıldı. "İsa Hüseynovu Folknerdən ayıran aşkar özəlliyi həm öz insani hekayəsini, həm də milli Azərbaycanın dastanını saz şairlərinin, dastançıların min illərdən bəri nəsildən-nəsilə ötürdüklərinə bənzər şəkildə anlatmasıdır. Bir mənada Nizami Gəncəvinin hekayətlərinin çağdaş ifadəçisi də deyə bilərik İsa Hüseynova.

Aşıqla romançı, şairlə dastançı, tarixçi ilə şahın salnaməçisi onun romanlarından intellektual bir vəhdətlə, bir-birindən ayrılmazcasına elə birləşiblər ki, məncə, onu orijinal, bənzərsiz edən özəlliyi də bu qabiliyyətində gizlidir.

---

[1] Muğanna İ. Seçilmiş əsərləri. 6 clddə, II c., Bakı, Avrasiya Press, 2009, s. 365

Hüseynovda üslub yenə dastançı, qarışıq, zamanı parçalayıb yenidən birləşdirən bir puzzla dadı verirkən bəzən ən qədim Azərbaycan mifoloji mətnlərinin yansıması, bəzən də çağdaş bir Dədə Qorqudun üslubudur"[2]. Doğurdan da İ.Hüseynovun bədii təhkiyyəsi, yazıçı üslubu hansısa janrın strukturuna münasibətdə axıra qədər davamlı və sabitləşmiş görünmür. Olduqca zəngin, obrazlar qalareyasının mükəmməlliyi, təsvir mexanizmlərinin rəngarəngliyi, arxaik düşüncədən qaynaqlanan təsəvvürlər sisteminin hərəkətliyi, epos təhkiyyəsindəki özünü göstərən düşüncə və ifadə formulları, qəhrəman tiplərinin arxaik qaynaqları, nağıl formullarındakı kodlar, milli mənliyi, mifik arxetiplərin hərəkəti və s. bir sistem olaraq İ.Hüseynov nəsrində özünü göstərir və bütövə, bədii kamilliyin mümkünlüyü düşüncəsinə gətirib çıxarır. Bütün formullar bədiiliyin komponenti olaraq qovuşur. Eposla roman, hekayə ilə nağıl, salnamə ilə tarixi yaddaş elementləri, mifik düşüncədən gələn arxetiplər, aşıqla elat təhkiyəsi və s. bədii əsərlərin mahiyyətinə çökür. Bizim üçün maraqlı olan bu dəyişmələrdə məlum İ.Hüseynov üslubunun İsa Muğanna dövründəki mənzərəsidir. Yazıçının düşüncəsindəki arxaik elementlər, milli yaddaş mexanizmləri, folklor mədəniyyəti, dastanlardan, nağıllardan, epos ənənəsindən gələn formullar bir sistem kimi qorunur. Əvvəlki onilliklərdə formalaşmış ciddi yazıçı üslubu burada da özünü bir istiqamət olaraq göstərir. Sadəcə olaraq əsərlərinə əlavələr hissəsində həyatı və dünyanı dərk məsələsində fərqli bir sistemin qoyuluşu müşahidə edilir. Bir məsələni də xüsusi vurğulayaq ki, bu sistemin kod və şifrələrinin müəyyənliyi hələ qaranlıq qalmaqdadır. Yazıçı əsərlərində bunları müəyyən sistem vahidi kimi təqdim edir.

El deyimləri və poetik folklor örnəkləri İ.Hüseynov yaradıcılığında milli koloritin yaradılmasının mühüm qaynaqlarındandır. Xalq məişətindən, elat danışıq tərzindən gələn elementlər, folklor düşüncəsindəki əfsanə, rəvayət, nağıl, dastan təhkiyəsi, xəlqi kolorit bədii nümunələrin ideya-məzmun çəkisini artırmış, ona əlavə ovqat qatmışdır.

Görkəmli ədibin yaratdığı nümunələrin hər birisi ayrı-ayrı zaman və qiymətləndirmə müstəvisində klassikanı, orijinal təhkiyəni, sənətkar üslubunu ehtiva edir. Zəngin yaradıcılığın "Anadil ötən yerdə"dən "İlan dərəsi"nə qədər olan məsafəsi bütünlükdə bəşər sivilizasıyasının keçib

---

[2] Ülki İ. Azərbaycan Folkneri: İsa Hüseynov (Muğanna). "Ədəbiyyat qəzeti", 8 oktyabr 2004

gəldiyi yol məsafəsidir. Məhz bu səbəbdən də İ.Hüseynovun yazıçı üslubu geniş mahiyyətli məsələ kimi müəmmalara yol açır, müxtəlif nəzəri konsepsiyaların müəyyənləşdirdiyi prinsiplərlə, çarpaz yanaşmalarla baxmanı və qənaətləri aktuallaşdırır. Milli kolorit müxtəlif vasitələrlə, bir istiqamətdə dastan, nağıl formulları ilə yaranırsa, digər istiqamətdə ayrı-ayrı janrlardan gələn zəngin folklor elementləri, etnoqrafik cizgilər, xalq məişətinin, milli adət-ənənənin təqdimi ilə özünü göstərir. Ən başlıcası isə bütün bunları bir düşüncə ətrafında toplayan, xəlqi koloriti yaradan folklor üslubudur. Bu üslub quru, cansıxıcı təkrarçılıqdan çox uzaq orijinal düşüncə və yazıçı əlavələrilə daha canlı, koloritli görünür.

Ümumiyyətlə, İ.Hüseynovun təhkiyəsi bütünlükdə elat düşüncə tərzinə, xəlqi təhkiyə formullarına, milli yaddaş prinsiplərinə əsaslanmaqla genetik yaddaşı özündə daşıyan bir üslubdur. Onun əsərlərinin mətn konstruksiyası çoxyönlü, çoxçeşidli olmaqla müasir dünyaduyumuna, mental mədəniyyət qatlarının açılışına və ifadəsinə yönəlmişdir.

İsa Hüseynovun yaradıcılığı, daha doğrusu, özəl yazıçı təhkiyəsi üçün nağıl təhkiyəsi, onun daxili və xarici formulları, mətn texnologiyası bütün əsərlərində üstünlük təşkil edən hadisədir. Azərbaycan xalqının zəngin nağıl örnəkləri klassik ədəbiyyatın, eləcə də son dövr bədii düşüncənin əsas enerji qaynaqlarındandır. Ədibin yaradıcılığı üçün xarakterik keyfiyyətlər, təhkiyə özünəməxsusluğu, folklor üslubunun uğurlu görünüşü son dövr yazdığı əsərlərdə də bir xətt kimi davamlı olaraq yaşanır. Sadəcə olaraq baş verənlər böyük sənətkarın həyata, dünyaya, insan cəmiyyətinin inkişaf mərhələlərinə, keçib gəldiyi yola münasibətdə özünü göstərir. Doğrudur, dini kitablarda, əfsanə və rəvayətlərdə, aşıq deyişmələrində dünyanın yaranışı, bu yaranışa qədər başqa mövcudatın olması və yaxud da Nuh tufanı haqqında bilgilər yer almaqdadır. İ.Hüseynov öz sənətkar qüdrətini, həyatı və dünyanı dərkini bu xətdə daha fərqliliklə SafAğ, OdƏr, AğOd, AğEy, ƏsƏr, GurÜn və s. terminalogiyası ilə bədii arenaya gətirir və maraqlı mülahizələrlə görünür. Müasir elm hələ bunun mahiyyətini və inkişaf istiqamətini, nə dərəcədə mövcudluq, həqiqət konsepsiyasını təqdim edə bilmək imkanında görünmür. Ancaq düşünəndə ki, bunu İ.Hüseynov kimi böyük yazıçı deyir, onda bu deyilənlər, fərqli düşüncənin özü ətrafında düşünməli olursan. Onun əsərlərində elat həyat tərzindən gələn elementlər, sadə, aydın danışıq tərzi, elat düşüncə üslubu özünü bütün tərəfləri ilə göstərir. Yazıçı istedadı bir istiqamətdə məhz görüb müşahidə etdiyi, hətta

iştirakçısı olduğu hadisələri təbii, boyasız təhkiyə ilə deyə bilmək bacarığındadır. Sanki burada yazıçı həyatının hansısa uşaqlıq, gənclik illərində yaşadığı hadisələri, ətrafında baş verənləri bir lent yazısından köçürürmüş kimi görünür. Bu, onun yazıçı üslubunu, təhkiyyəsinin mahiyyətini ortaya qoyan hadisədir.

İ.Hüseynov bütün bilgilərini milli-mənəvi dəyərlər müstəvisində hərəkətə gətirməklə fərdi yazıçı üslubunu və bütünlükdə, çağdaş ədəbiyyatda İ.Hüseynov (Muğanna) fenomeninin mahiyyətini ortaya qoyur.

İsa Hüseynovun (Muğanna) yaradıcılığında milli koloritin inikası probleminin araşdırılması maraqlı elmi nəticələrə gətirib çıxarmışdır:

- Araşdırma zamanı müəyyənləşdirilmişdir ki, İsa Hüseynov yaradıcılığının enerji qaynağını xalqın milli-mənəvi mədəniyyəti, mental dəyərlər sistemi, etnoqrafiyası təşkil edir. Görkəmli nasirin istər 1960-80-ci illərdəki ədəbi-bədii axtarışları, istərsə də müstəqillik illərindəki yeni məzmunlu yaradıcılıq yolu daim milli koloritin zənginliyi ilə diqqəti çəkmiş və bu keyfiyyət İsa Hüseynov (Muğanna) nəsrinin əsas göstəricilərindən birinə çevrilmişdir.

- Milli şüur, mənlik duyğularının ifadəsi, obrazların tarixi-milli dəyərlər müstəvisində canlandırılması və bədii nəsrin bu müstəvidə hərəkətə gətirilməsi İ.Hüseynov (Muğanna) yaradıcılığının mahiyyətini təşkil edir.

- Müəyyən olunmuşdur ki,formalaşmış sovet adamı düşüncəsinin əksinə, milli əxlaqa, etnos təsəvvürlərinə, mifik yaddaşdan qaynaqlanan davranış normalarına üstünlük verən əsərlər yaratmışdır.

- İ.Hüseynov yaradıcılığında milli koloritin inikası probleminin tədqiqi göstərdi ki, xalqın zəngin folklor yaddaşı, elat həyat tərzi, məişət faktlarının yeni keyfiyyətli təqdimi yazıçının hekayə, povest və romanlarında məhz milli özünüifadəyə xidmət mövqeyinə yönəlmişdir.

- Yazıçı folklordan gələn bədiilik faktlarını yeni zaman müstəvisində hərəkətə gətirmiş və ondan yararlanmaqla milli mənəvi mədəniyyətə bağlı sənətkar tipini formalaşdırmışdır. Əfsanə, rəvayət, nağıl, dastan konstruksiyasında özünü göstərən mətn simvolikası, bədiiliyə və yazıçı idealına xidmət edir.

- İ.Hüseynov müasir Azərbaycan ədəbiyyatında epos ənənəsindən gələn klassik sənət nümunələri yaratmışdır. İsfəndiyar kişi, Mehbalı əmi, Qılınc Qurban, Kollu Koxa, Tapdıq, Məsi, Cümrü, Milli, Feldşer Hacı, Molla Gülən, Sultan Əmirli və s. kimi surətlər şəbəkəsi onun yaddaşının hadisəsi olaraq kənardan, hansısa təxəyyülün deyil, yazıçının yaşadığı

həyatın, uşaqlıq və gənclik illərinin hadisəsi kimi bədii sferaya gətirilmişdir. Zəngin və çoxyönlü surətlər qalereyası, eləcə də dastan, nağıl formulları, təhkiyə üsulları İsa Hüseynov (Muğanna) nəsrində bütün dinamikası ilə milli varlığın qoruyuculuq missiyasına yönləndirilmişdir.

- Azərbaycan bədii nəsrinin ideya-estetik mənbələrindən hesab olunan epos təfəkkürü, onun struktur elementləri İ.Hüseynovun yaradıcılığında təkcə qəhrəman tipləri müstəvisində özünü göstərmir. Burada həm də arxetiplərin oyanışı və yaddaş hərəkəti özünü göstərir.

- İsa Hüseynovun zəngin yaradıcılığında milli koloriti yaradan, ona sözün geniş mənasında xalq yazıçısı statusu verən dəyər göstəricilərindən birisi dil zənginliyidir. O, Azərbaycan dilinin zənginliyindən, frazemlər sistemindən, nitq etiketlərindən, mənayaradıcı fiqurlardan istifadə etməklə əvəzsiz nümunələr yaratmış, milli dil potensiyasının sonsuz imkanlarını orataya qoymuşdur. Görkəmli nasirin yaradıcılığının son dövrünün ədəbi nümunələri olan "İdeal", "GurÜn", "Qəbiristan", "Cəhənnəm", "İsahəq, Musahəq", "İlan dərəsi" öz mahiyyəti etibarilə nə qədər yeni, orijinal səslənsə də özünün alt qatında milli yaddaşı, etnosun mənəvi dəyərlər sistemini ehtiva edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1.İsa Hüseynovun "Saz" povestində milli mənəvi dəyərlərin inikası. // AMEA. Folklor İnstitutu. "Elmi axtarışlar". Bakı, Səda, 2006, XXII, səh. 93-97

2.İsa Hüseynov (Muğanna) yaradıcılığında ozan-aşıq obrazı.// "Dil və Ədəbiyyat", Beynəlxalq elmi-nəzəri yurnal, 3 (87), səh. 171-174

3.Bədii nəsrdə folklora müraciətin İsa Muğanna örnəyi. // "Ədəbiyyat məcmuəsi". Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, xüsusi buraxılış. Bakı, Elm və təhsil 2014, XXV, səh. 224-231

4.Bədii nəsrdə folklorizm və milli tarixi yaddaş problemi. // AMEA. Humanitar Elmlər. "Xəbərlər", №2, Bakı, Elm, 2014, səh. 171-176

5.İsa Hüseynov-Muğanna yaradıcılığında Koroğlu və Çənlibel obrazlarının yazıçı təhtəlşüurundakı dərki. // AMEA. Humanitar Elmlər. "Xəbərlər", 2015-ci il, №1, səh.117-121

6. Milli əxlaq və davranış normaları tarixi kimlik göstəricisi kimi.// AMEA. Folklor İnstitutu. "Dədə Qorqud" jurnalı, 2015, №1, səh.117-121

7.İsa Hüseynov-Muğanna nəsrində elat həyat tərzinin epik təsvir üsulları. // “Azərbaycanşünaslığın aktual problemləri”, VI Beynəlxalq Elmi konfransın materialları, I hissə, 5-7 may 2015-ci il, səh. 282-285

8. («Место фольклорных ценностей в поэтике прозы». Національний педагогічний університет імені М. П. Драгоманова, ВГО Українська Академія Наук. «Гилея», Науковий віснік журнал, Киів, 2015г. Випуск 95 (4) с.223-227 (“Folklor dəyərlərininin nəsr poetikasında yeri”)

9.İsa Hüseynovun (Muğanna) nəsrində el ağsaqqalı obrazı. “Filologiya məsələləri” jurnalı, “Nurlan” nəşriyyatı, №10, 2015.



**Ахмедова Ильхама Мухтаргызы**

## Проблема отражения национального колорита в прозе Исы Гусейнова (Муганна)

Диссертация состоит из введения, двух глав, выводов и списка использованной литературы. Во введении обосновывается актуальность темы, излагается объект, предмет, цели и задачи, научно-теоретические и методологические основы исследования, научная новизна диссертации, ее теоретическое и практическое значение.

Первая глава под названием «Исторические и духовные ценности как одни из показателей национального образа в творчестве Исы Гусейнова (Муганны)» состоит из двух параграфов. В первом параграфе, который называется «Художественное выражение национального сознания и чувства собственного достоинства в творчестве Исы Гусейнова», говорится о понимании писателем окружающего мира, системы и привнесении им чувства национального достоинства в литературу. Во втором параграфе, который называется «Национальные стандарты этики и поведения как показатели исторической идентификации» раскрывается генетическая сущность национальной принадлежности. В этом параграфе говорится о том, как И.Гусейнов в своих произведениях отдает предпочтение сохранению и защите во всех ситуациях национальных стандартов этики и поведения, защите существующего исторического самосознания народа.

Вторая глава «Способы выражения национального колорита в прозе» объединяет два параграфа. Здесь, в первую очередь, уделяется внимание вопросам функционально-семантической позиции национальных реалий в тексте прозы. Все произведения Исы Гусейнова основаны на богатой этнографической культуре народа. Эта глава интересна тем, что здесь показано отношение писателя к народным реалиям и этнографическим фактам. Второй параграф второй главы называется «Повествование писателя и фольклорный стиль». Здесь отмечается, что богатая фольклорная культура добавила произведениям И.Гусейнова разнообразия и профессиональности. В целом, стиль повествования И.Гусейнова близок к стилю народного творчества и основывается на принципах генетической памяти народа.

В «Выводах» отражены заключительные положения и обобщены полученные научно-теоретические предложения и рекомендации.

**Ilhama Mukhtar Ahmadova**

## Reflection problems of national colors in the prose of Isa Huseynov (Mughanna)

The dissertation work consists of introduction, two chapters, conclusion and reference. In the "Introduction" urgency of the theme has based, object and subject, duties, purposes, also scientific-theoretical and methodological basis of scientific investigation explained, clarified the scientific innovation, theoretical and practical importance of dissertation work.

The first chapter "Historical and spiritual values as one of the nationality indicators of character in artistic prose by Isa Huseynov (Mughanna)" consists of two paragraphs. In the first paragraph "Artistic expression of national consciousness and dignity senses in artistic prose by Isa Huseynov" and perceiving an authors' environment and system, here talked about bringing national dignity senses to the literary. The second chapter "National morals and behavior norms as historical identity indicators" clarified genetic maintenance of national belonging. Noted that I.Huseynov in all conditions preferred national morals and behavior norms and protection of existing historical identity.

In the second chapter "Expression methods of national colors in the pros narration" the problem generalized in two paragraph. Firstly, gave special attention to the problems of "Functional–sematic position in the pros text of national realities". All works by Isa Huseynov took their basis from rich ethnographic cultures of population. Interesting side of the same chapter is the inclination to the creation realities and ethnographic facts. In the second paragraph of the second chapter is "Writers' narration and folklore method". Here noted that rich folklore culture made the works by I.Huseynov more colorful, mastership and thought variety. In generally, I.Huseynov's narration completely conveys genetic memory to be based on Elat thought style, creation narration formulas, and national memory principles.

In the "Conclusion" final items of investigation have given to the attention and generalized achieved scientific–theoretical considerations.

**AMEA-nın mətbəəsində çap olunub**

**Tiraj-100**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ ИМ. НИЗАМИ**

*На правах рукописи*

**ИЛЬХАМА МУХТАР кызы АХМЕДОВА**

# ПРОБЛЕМА ОТРАЖЕНИЯ НАЦИОНАЛЬНОГО КОЛОРИТА В ПРОЗЕ ИСЫ ГУСЕЙНОВА (МУГАННА)

5716.01- Азербайджанская литература

## АВТОРЕФЕРАТ

диссертации на соискании научной степени
доктора философии по филологии

**БАКУ - 2016**